*Babur şah – 540*

# Hindistanın türk fatehi

**Dövlət xadimi, şair, yazıçı, tarixçi, coğrafiyaçı, etnoqraf, ensiklopedik zəka sahibi, Uzaq Hindistanda Böyük Türk imperiyası qurmuş Zahirəddin Məhəmməd Babur şah 1483-cü il fevralın 14-də Əndicanda anadan olub. Atası, Fərqanə hakimi Ömər Şeyx Mirzə böyük Əmir Teymurun nəticəsi, anası Qutlu Nigar xanım isə Çingiz xanın on dördüncü nəsilindən olub.**



Ömər Şeyx Mirzə dövlət idarəçiliyini öyrənməsi üçün Baburu Əndicana vali təyin edəndə onun 10 yaşı olub. İki il sonra Ömər Şeyx Mirzə qəza nəticəsində həyatını itirib və 12 yaşlı Babur Fərqanə taxtına çıxıb.

O, hakimiyyətdə olduğu illər ərzində çoxsaylı hərbi səfərlər edib, qanlı-qadalı döyüşlərdən keçib. Böyük Moğol İmperiyasının əsasını qoyan Babur şah Uzaq Hindistana qədər gedib çıxıb. O, Hindistana beş dəfə yürüş edib, Pəncabı, Qəndəharı, Lahoru, Dehli və Aqranı özünə tabe edib. Əfqanıstan, Bəlucistan və Şimali Hindistan ona tabe olub.

Babur şah Qazi Bürhanəddin, Şah İsmayıl Xətai, Cahan Şah Həqiqi, Şeybani xan, Hüseyn Bayqara, Sultan Səlim, Qanuni Sultan Süleyman və başqaları kimi həm hökmdar, həm də parlaq istedad sahibi, qələm əhli olub.

O, iki divanın müəllifidir. Bunlar "Kabil divanı" və "Hind divanı"dır.

Zahirəddin Məhəmməd Babur yaşadığı qısa və mənalı ömründə dünyaca məşhur "Baburnamə" memuarını qələmə alıb. Onun özbək ədəbiyyatında – türk şeirində lirik janrın inkişafında böyük rolu olub. Əsərdə geniş bir coğrafi regionun - Türküstan, Əfqanıstan və Hindistan xalqlarının siyasi, ictimai, iqtisadi və mədəni həyatının səciyyəvi cəhətləri öz əksini tapıb.

Bugünlərdə Bakı Dövlət Universiteti Türkologiya kafedrasının müdiri, filologiya elmləri doktoru, professor Ramiz Əskər "Xalq qəzeti"nə müsahibəsində bildirib ki, 2011-ci ildə Baburun məşhur "Baburnamə"sini və "Seçilmiş əsərləri"ni tərcümə edərək nəşr etdirib. 500-dən çox əsərini müasir dilimizə uyğunlaşdırıb. Əlavə olaraq, Baburun "Etiqadiyyə" risaləsini və tərcümə etdiyi "Risaleyi-validiyyə"ni də həmin kitaba salıb.

*Elçin ABBASOV,*
*"Xalq qəzeti"*